# BENAFTON®

## KLİNKERİN ÜYÜDÜLMƏSİNİ İNTENSİVLƏŞDİRƏN, BETONUN AXICILIĞINI VƏ TUTMA MÜDDƏTİNİ ARTIRAN QATQI




**Məhsul haqqında**
BENAFTON naften turşularının distilliyasiyasından sonra yaranan qalıq olub, suda həllolmayan, yağaoxşar, şabalıdı rəngli mayedir. Tərkibində 95%-ə qədər naften turşuları mövcuddur.

**İstifadə sahələri**
Bu məhsuldan:
• üyüdülmə prosesini intensivləşdirmək və onlardan hazırlanmış quru qarışıqların hidrofobluğunu artırmaq məqsədilə klinkerin və mineral doldurucuların həm ayrı-ayrılıqda, həm də digər səthi aktiv maddələrlə kompleks şəkildə üyüdülməsində istifadə olunur.

**Üstünlükləri**
• gips və sement əsaslı quru qarışıqların fiziki-mexaniki xüsusiyyətlərini, o cümlədən uzunömürlülüyünü artırır.

**İstifadə qaydaları**
***Tətbiqi.*** BENAFTON qatqısını dəqiqləşdirilmiş (elektron) tərəzi ilə çəkdikdən sonra istifadə edin. Tövsiyə olunan miqdarda qatqını klinker, əhəngdaşı, gips dəyirmanının I və ya II bölümündə sistemə, ya da birbaşa klinkeri, əhəngdaşı və gipsi sistemə aparan transportyorun üzərinə damcılatmaqla istifadə edin.

**Texniki göstəricilər**

| | |
|---|---|
| Rəngi | şabalıdı rəngli maye |
| Sıxlığı | 0,98 kq/litr |
| Xlor miqdarı | yoxdur |
| Qələvi | yoxdur |
| Qablaşdırma | 10 kq-lıq bidon, 200 kq-lıq çəllək<br>1000 kq-lıq fıçı, xüsusi çənləri olan maşınlar |

**Sərfiyyat**
Üyüdülən xammalın (əhəngdaşı, gips, klinker) kütləsinin 0,2-0,6 %-i qədər istifadə olunur.

**Saxlama müddəti və qaydası**
Ağzı açılmamış qablarda quru şəraitdə 12 ay saxlanıla bilər.

**Xəbərdarlıqlar**
• istifadə zamanı işin və işçinin təhlükəsizliyi qaydalarına riayət olunmaqla, müvafiq iş paltarı, qoruyucu əlcək, eynək və maskadan istifadə edin;
• məhsulun allergiya və qaşınma kimi təsirlərini nəzərə alaraq, komponentlərin dəriyə və gözə təmas etməməsinə diqqət edin, dəriyə və gözə düşərsə dərhal çoxlu miqdarda su və sabunla yuyun;
• məhsulun udulma halı baş verərsə, dərhal həkimə müraciət edin;
• istifadə edildiyi yerlərə ərzaq məhsulları qoymayın;
• uşaqların əli çatmayan yerlərdə saxlayın.

**Zəmanət və texniki dəstək**
• texniki göstəricilərdə qeyd edilmiş məlumatlar elmi və təcrübi biliklərə əsaslanır;
• “Mətanət A” şirkəti məhsulun müvafiq texniki şərt və dövlət standartlarına uyğunluğuna zəmanət verir;
• şirkətin mütəxəssislərinin rəhbərliyi altında görülən işlər istisna olmaqla, digər istifadəçilər tərəfindən təlimatdan kənar istifadə zamanı yarana biləcək problemlərə görə “Mətanət A” şirkəti məsuliyyət daşımır;
• şirkət elmi-texniki inkişafla bağlı məhsulda dəyişiklik etmə hüququnu özündə saxlayır;
• texniki dəstək və ya daha geniş məlumat almaq üçün “Mətanət A” şirkətinə müraciət edin!